Azadlıq Radiosu

AZƏRBAYCAN XƏBƏRLƏRİ

# Yaxınları Salayevin yenidən cərimə kamerasına salındığını deyirlər

36 dəqiqə öncə




Zamin Salayev

11 saylı Cəzaçəkmə Müəssisəsində saxlanılan müxalif Azərbaycan Xalq Cəbhəsi Partiyası (AXCP) fəalı **Zamin Salayev**in (Əlzamin) cərimə kamerasına salındığı bildirilir.

Ailə üzvlərinin sözlərinə görə, onlar təxminən 10 gün ərzində Salayevlə əlaqə saxlaya bilməyiblər. Nəhayət, dünən, iyunun 24-də onun cərimə kamerasına (kars) yerləşdirildiyini öyrəniblər. Fəalın oğlu **Oqtay Salayev** hadisəyə belə reaksiya verib: **"Atam orada da aclıq aksiyasına başlayıb. Onun səhhətindəki problemlər saymaqla bitməz. İnsanı həbsxanada belə yenidən həbs edirlər".**

Hələlik sözügedən cəzaçəkmə müəssisəsindən və digər aidiyyəti qurumlardan məsələyə münasibət öyrənilə bilməyib.

Salayevin yaxınları bundan əvvəl də onun əsassız və sifarişlə cərimə kamerasına salınması ilə bağlı bəyanatlar yayıblar. O zaman da rəsmi qurumlardan şərh almaq mümkün olmayıb. Penitensiar Xidmətin rəsmiləri isə, bir qayda olaraq, məhbuslarla yalnız qanun çərçivəsində rəftar olunduğunu iddia edirlər.

Salayev 2023-cü il mayın 22-də Qaradağ rayon Məhkəməsinin hökmü ilə 4 il müddətinə azadlıqdan məhrum edilib. O, həmin il fevralın 7-də saxlanılıb və Cinayət Məcəlləsinin 221.3-cü (silah və ya silah qismində əşya tətbiq etməklə xuliqanlıq) maddəsi ilə ittiham olunub. AXCP fəalı ittihamı qəbul etmir.

## Xatırlatma

AXCP-nin Salyan şöbəsinin sədri Zamin Salayev bundan əvvəl — 2020-ci ilin aprelində Salyan rayon Məhkəməsinin hökmü ilə 2 il 3 ay müddətinə azadlıqdan məhrum edilmişdi. Salayev həbsindən bir müddət əvvəl sosial şəbəkələrdə Salyan rayon Polis Şöbəsinin əməkdaşı Həmzə Əzizovla mübahisəsinin videosunu paylaşmışdı. Həmin videoda AXCP üzvü polis əməkdaşını rayonda yaşayan bir qadına təcavüzdə ittiham edirdi. Video yayımlandıqdan sonra polis əməkdaşı Salyan rayon Məhkəməsində xüsusi ittiham qaydasında iddia qaldıraraq onun həbsini tələb etmişdi.

Videoda adı çəkilən qadın isə Əzizova bıçaqla xəsarət yetirdiyinə görə 7 il həbs cəzasına məhkum edilib. O, polisin zorakı hərəkətlərindən müdafiə olunmaq üçün bu addımı atdığını bildirsə də, polis əməkdaşı onun dediklərinin həqiqəti əks etdirmədiyini söyləyib.

Salayev 2022-ci il yanvarın 19-da — Amnistiya Aktı ilə əlaqədar cəza müddətinin başa çatmasına bir neçə ay qalmış azadlığa buraxılmışdı.

AzadlıqRadiosu © 2026 Inc. | Bütün hüquqlar qorunur